AQRAR TƏDQİQATLAR MƏRKƏZİ

Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi

# Kənd Təsərrüfatı və Ərzaq Məhsulları üzrə Dünya Bazarı Konyukturasına dair Qısa İcmal

May 2022

# M ü n d ə r i c a t

FAO-nun qlobal ərzaq qiymətləri indeksinə dair hesabatı ........ 2
Buğda üzrə dünya bazarı konyukturasına dair qısa icmal ........ 3
Buğdanın Rusiya Federasiyasında qiyməti ........ 6
Arpanın dünya bazarı qiymətinə dair qısa icmal ........ 7
Düyünün dünya bazarı qiymətinə dair qısa icmal ........ 8
Qarğıdalının dünya bazarı qiymətinə dair qısa icmal ........ 9
Pambıq üzrə dünya bazarı konyukturasına dair qısa icmal ........ 10
Xam ipəyin dünya bazarı qiymətinə dair qısa icmal ........ 12
Quru baramanın dünya bazarı qiymətinə dair qısa icmal ........ 13
Günəbaxan yağının Avropa bazarı qiymətinə dair qısa icmal ........ 14
Zeytun yağının dünya bazarı qiymətinə dair qısa icmal ........ 15
Çayın dünya bazarı qiymətinə dair qısa icmal ........ 16
Şəkərin dünya bazarı qiymətinə dair qısa icmal ........ 17
Soyanın dünya bazarı qiymətinə dair qısa icmal ........ 18
Mal ətinin dünya bazarı qiymətinə dair qısa icmal ........ 19
Qoyun ətinin Avropa bazarı qiymətinə dair qısa icmal ........ 20
Donuz ətinin Avropa bazarı qiymətinə dair qısa icmal ........ 21
Quş ətinin dünya bazarı qiymətinə dair qısa icmal ........ 22
Qaba yunun dünya bazarı qiymətinə dair qısa icmal ........ 23
Südün dünya bazarı qiymətinə dair qısa icmal ........ 24
Gübrənin dünya bazarı qiymətinə dair qısa icmal ........ 26

# FAO-nun qlobal ərzaq qiymətləri indeksinə dair hesabatı

**(FAO-nun 3 İyun 2022-ci il tarixli açıqlaması)**

***FAO-nun Ərzaq Qiymətləri İndeksi 2022-ci ilin may ayında əvvəlki ayın enmə trendinə uyğun olaraq yenidən azalmışdır.***

- **Qlobal Ərzaq Qiyməti İndeksi** 2022-ci ilin may ayında orta hesabla 157.4 bənd təşkil edib, əvvəlki ay ilə müqayisədə 0.6% (0.9 bənd) **az**, ötən ilin may ayı ilə müqayisədə isə 22.8% (29.2 bənd) **çoxdur**.
- **Ət Məhsullarının Qiymət İndeksi** may ayında orta hesabla 122.0 bənd təşkil edib, əvvəlki ay ilə müqayisədə 0.5% (0.6 bənd), ötən ilin may ayı ilə müqayisədə isə 13.6% (14.6 bənd) **çoxdur.**
- **Süd Məhsullarının Qiymət İndeksi** may ayında orta hesabla 141.6 bənd təşkil edib, əvvəlki ay ilə müqayisədə 3.5% (5.1 bənd) **az**, ötən ilin may ayı ilə müqayisədə isə 16.9% (20.5 bənd) **çoxdur**.
- **Taxıl Qiyməti İndeksi** may ayında orta hesabla 173.4 bənd təşkil edib, əvvəlki ay ilə müqayisədə 2.2% (3.7 bənd), ötən ilin may ayı ilə müqayisədə isə 29.7% (39.7 bənd) **çoxdur**.
- **Bitki Yağlarının Qiymət İndeksi** may ayında orta hesabla 229.3 bənd təşkil edib, əvvəlki ay ilə müqayisədə 3.5% (8.3 bənd) **az**, ötən ilin may ayı ilə müqayisədə isə 31.1% (54.4 bənd) **çoxdur**.
- **Şəkər Məhsullarının Qiymət İndeksi** may ayında orta hesabla 120.3 bənd təşkil edib, əvvəlki ay ilə müqayisədə 1.1% (1.3 bənd) **az**, ötən ilin may ayı ilə müqayisədə isə 12.6% (13.5 bənd) **çoxdur.**

**FAO-nun ərzaq qiymətləri indeksi, məhsullar üzrə, aylıq (2014-2016-cı illər 100 götürülüb)**




**FAO-nun ərzaq qiymətləri indeksi, illik (2014-2016-cı illər 100 götürülüb)**




**Mənbə:** http://www.fao.org/worldfoodsituation/foodpricesindex/en/

# Buğda üzrə dünya bazarı konyukturasına dair qısa icmal

***(ABŞ-ın Kənd Təsərrüfatı Nazirliyinin 10 İyun 2022-ci il tarixli hesabatı əsasında hazırlanıb)***

- 2022/2023-cü məhsul ili üzrə qlobal buğda istehsalı may ayının proqnozu ilə müqayisədə 1.4 milyon ton azalaraq 773.4 milyon ton olacağı proqnozlaşdırılır.

**Dünya üzrə buğda bazarının tələb-təklif balansı, milyon ton**

| | | 2020/2021 | 2021/2022 | 2022/2023 |
|---|---|---|---|---|
| **TƏKLİF** | İlin əvvəlinə qalıq | 298 | 292 | 279 |
| | İstehsal | 776 | 779 | 773 |
| | **Cəmi təklif** | 1074 | 1071 | 1053 |
| **TİCARƏT** | İdxal / İxrac | 203 | 199 | 205 |
| **TƏLƏB** | Ərzaq və toxum | 624 | 630 | 633 |
| | Yem | 158 | 161 | 153 |
| | Cəmi istifadə | 782 | 791 | 786 |
| **İLİN SONUNA QALIQ** | | 292 | 279 | 267 |
| ***DÜNYA ÜZRƏ EHTİYATLARIN İSTEHLAKA NİSBƏTİ, %*** | | **37** | **35** | **34** |

**Mənbə:** www.uswheat.org

- Qlobal miqyasda məcmu təklifin həcm göstəricisinin 2021/2022-ci məhsul ili ilə müqayisədə 18 milyon ton azalaraq 1053 milyon ton olacağı təxmin edilir.
- Dünya buğda ticarətinin 2022/2023-cü məhsul ilində əvvəlki məhsul ili ilə müqayisədə 6 milyon ton artaraq 205 milyon ton olacağı proqnozlaşdırılır.
- 2021/2022-ci məhsul ilinə nəzərən cari məhsul ilində əsas buğda ixracatçısı olan ölkələrdə ixrac edilə bilən buğdanın həcmi dəyişməz olaraq 221 milyon ton olması proqnozlaşdırılır.
- 2021/2022-ci məhsul ilinə nəzərən 2022/2023-cü məhsul ilində dünyada buğda üzrə istehlakın 0.63% azalaraq 786 milyon ton olacağı proqnozlaşdırılır.

- Proqnozlar reallaşacağı təqdirdə 2021/2022-ci məhsul ili ilə müqayisədə qlobal buğda ehtiyatlarının həcminin 4.30% azalaraq 267 milyon ton olacağı gözlənilir. Buna uyğun olaraq, dünya üzrə ehtiyatların istehlaka nisbəti göstəricisi 34.0% səviyyəsində olacaq.
- Ötən mövsümə nəzərən cari mövsümdə əsas buğda ixracatçısı olan ölkələrdə ilin əvvəlinə olan qalıq həcmi 1.67% artaraq 61.0 milyon ton, istehsal həcmi isə 2021/2022-ci məhsul ili ilə müqayisədə 1.0 milyon ton az (382.0 milyon ton) olacağı gözlənilir. Bununla da, əsas ixracatçı ölkələr üzrə ümumi təklif səviyyəsi 1.0 milyon ton az (442.0 milyon ton) olacaq.
- Çində buğda ehtiyatlarının həcminin 2021/2022-ci məhsul ili ilə müqayisədə dəyişməz olaraq 142 milyon ton olması gözlənilir.
- Qara dəniz regionu ölkələri qrupu üzrə əvvəlki məhsul ilinə nəzərən 2022/2023-cü məhsul ilində istehsal həcminin 3.13% azalaraq 129.9 milyon ton olması, ixracın isə 2.13% azalaraq 59.7 milyon ton olması proqnozlaşdırılır.

**Qara dəniz ölkələri qrupu üzrə icmal**




**Qara dəniz ölkələri qrupu üzrə ixrac**




**Mənbə:** www.uswheat.org

**Bu qrupda əsas istehsalçılar Rusiya, Ukrayna və Qazaxıstandır.**

- **2019-2021-ci illər ərzində buğdanın ABŞ bazarı qiymətində artım müşahidə olunmuşdur. 2021-ci ilin dördüncü rübündən başlayan artım, 2022-ci ilin birinci rübündə də davam etmişdir. Aylıq müşahidə dövründə isə 2021-ci ilin oktyabr ayından artım tendensiyası müşahidə edilir. 2022-ci ilin may ayında buğdanın 1 tonunun ABŞ bazarında qiyməti əvvəlki ay ilə müqayisədə 4.38% artaraq 457.7 ABŞ dolları səviyyəsində qərarlaşmışdır.**







**Mənbə:** https://www.worldbank.org/en/research/commodity-markets#1
https://www.igc.int/en/markets/marketinfo-prices.aspx

## Buğdanın Rusiya Federasiyasında qiyməti

- **Rusiyadan ixrac edilən buğdanın qiymətində 2021-ci ilin dekabr ayından etibarən azalma trendi müşahidə edilsə də, 2022-ci ilin mart ayında kəskin artmışdır. 2022-ci ilin may ayında 1 ton buğdanın ixrac qiyməti əvvəlki aya nisbətən 3.31% artaraq 390.0 ABŞ dolları səviyyəsində qərarlaşmışdır.**
- **Rusiyanın daxili bazarında buğdanın qiymətində 2021-ci ilin may ayından 2021-ci ilin dekabr ayına qədər qeyri-müəyyənlik müşahidə olunmuşdur. 2022-ci ilin fevral ayında 1 ton buğdanın qiyməti əvvəlki aya nisbətən 3.06% azalaraq 221.1 ABŞ dolları olmuşdur.**
- **2022-ci ilin may ayı ərzində buğdanın 1 tonunun qiyməti Qara dəniz portlarında 390.0 ABŞ dollarından 410.0 ABŞ dollarına, Azov dənizi portlarında isə 360.0 ABŞ dollarından 385.0 ABŞ dolları səviyyəsinə qədər yüksəlmişdir.**




**Mənbə:** *http://www.fao.org/giews/food-prices/tool/public/#/dataset/domestic*




**Mənbə:** *https://www.apk-inform.com/en/prices*

# Arpanın dünya bazarı qiymətinə dair qısa icmal

➢ **Arpanın dünya bazarı qiymətində 2018-2020-ci illər ərzində qeyri-müəyyənlik müşahidə olunmuşdur. 2020-ci ilin dördüncü rübündə qeydə alınan artım 2021-ci ilin ilk iki rübündə davam etsə də, üçüncü rübündə ötən rüblə müqayisədə 2.23% azalaraq 175.2 ABŞ dolları səviyyəsində qərarlaşmışdır. Aylıq müşahidə dövründə isə 2021-ci ilin may ayından müşahidə edilən azalma sentyabr ayından etibarən artım ilə əvəzlənmişdir. 2021-ci ilin noyabr ayında isə arpanın 1 tonunun dünya bazarı qiyməti əvvəlki ay ilə müqayisədə 7.52% artaraq 224.4 ABŞ dolları səviyyəsində qərarlaşmışdır.**







**Mənbə:** https://www.imf.org/en/Research/commodity-prices

## Düyünün dünya bazarı qiymətinə dair qısa icmal

- Düyünün dünya bazarı qiyməti 2020-ci ildə əvvəlki ilə nisbətən artsa da 2021-ci ildə yenidən azalmışdır. 2022-ci ilin birinci rübündə düyünün 1 tonunun dünya bazarı qiyməti əvvəlki rübə nisbətən 6.49% artaraq 405.4 ABŞ dolları təşkil etmişdir. Aylıq müşahidə dövründə isə 2021-ci ilin noyabr ayına qədər davam edən azalma, dekabr ayından etibarən artım ilə əvəz olunmuşdur. 2022-ci ilin may ayında düyünün 1 tonunun dünya bazarı qiyməti əvvəlki ay ilə müqayisədə 8.26% artaraq 442.9 ABŞ dolları səviyyəsində qərarlaşmışdır.







**Mənbə:** *https://www.worldbank.org/en/research/commodity-markets#1*

# Qarğıdalının dünya bazarı qiymətinə dair qısa icmal

- Qarğıdalının dünya bazarı qiymətində 2021-ci ilin son iki rübündə müşahidə olunan yumşaq azalma 2022-ci ilin birinci rübündə əvvəlki rübə nisbətən 20.16% artaraq 301.6 ABŞ dolları/ton olmuşdur. Aylıq müşahidə dövründə isə qarğıdalının dünya bazarı qiymətində 2021-ci ilin may ayından sentyabr ayınadək azalma müşahidə olunmuşdur. 2021-ci ilin oktyabr ayından etibarən qarğıdalının qiymətində yenidən artım trendi müşahidə edilir. 2022-ci ilin may ayında qarğıdalının 1 tonunun dünya bazarı qiyməti əvvəlki ay ilə müqayisədə 0.96% azalaraq 344.8 ABŞ dolları səviyyəsində qərarlaşmışdır.







**Mənbə:** *https://www.worldbank.org/en/research/commodity-markets#1*

# Pambıq üzrə dünya bazarı konyukturasına dair qısa icmal

**Dünya üzrə pambıq balansına əsasən 2022/23-cü məhsul ili ərzində pambığın istehsalında 2021/22-ci məhsul ili ilə müqayisədə artım qeydə alınacağı proqnozlaşdırılır.**

**Cədvəl 1. Dünya üzrə pambıq balansı (*Çin də daxil olmaqla*)**

| Milyon ton | 2017/2018 | 2018/2019 | 2019/2020 | 2020/2021 | 2021/2022 | 2022/2023 May | 2022/2023 İyun |
|---|---|---|---|---|---|---|---|
| **İlin əvvəlinə qalıq** | 17.8 | 18.0 | 17.7 | 21.3 | 19.2 | 18.2 | 18.1 |
| **İstehsal** | 27.1 | 25.7 | 26.1 | 24.3 | 25.5 | 26.4 | 26.4 |
| **Təklif** | 44.9 | 43.7 | 43.8 | 45.5 | 44.6 | 44.6 | 44.5 |
| **Fabrik istehlakı** | 26.9 | 26.3 | 22.5 | 26.5 | 26.5 | 26.6 | 26.5 |
| ***İlin sonuna qalıq*** | 18.0 | 17.7 | 21.3 | 19.2 | 18.1 | 18.0 | 18.0 |
| ***Qalıq/İstehlak nisbəti*** | *66.9%* | *67.5%* | *94.5%* | *72.4%* | *68.2%* | *67.9%* | *68.1%* |

**Cədvəl 2. Çinin pambıq balansı**

| Milyon ton | 2019/20 | 2020/21 | 2021/22 | 2022/23 İyun |
|---|---|---|---|---|
| **İlin əvvəlinə qalıq** | 7.8 | 8.0 | 8.5 | 8.0 |
| **İstehsal** | 5.9 | 6.4 | 5.9 | 6.0 |
| **Təklif** | 15.3 | 17.3 | 16.3 | 16.3 |
| **Fabrik istehlakı** | 7.2 | 8.7 | 8.3 | 8.3 |
| ***İlin sonuna qalıq*** | 8.0 | 8.5 | 8.0 | 8.0 |
| ***İstehlak*** | 7.2 | 8.7 | 8.3 | 8.3 |
| ***Qalıq/İstehlak nisbəti*** | *111.3%* | *98.1%* | *95.7%* | *96.3%* |

**Cədvəl 3. Çin daxil olmadan dünya pambıq balansı**

| Milyon ton | 2019/20 | 2020/21 | 2021/22 | 2022/23 İyun |
|---|---|---|---|---|
| **İlin əvvəlinə qalıq** | 10.0 | 13.2 | 10.6 | 10.1 |
| **İstehsal** | 20.2 | 17.8 | 19.6 | 20.4 |
| **Təklif** | 30.2 | 31.1 | 30.2 | 30.5 |
| **Fabrik istehlakı** | 15.3 | 17.8 | 18.2 | 18.2 |
| ***İlin sonuna qalıq*** | 13.2 | 10.6 | 10.1 | 10.0 |
| ***İstehlak*** | 16.9 | 20.6 | 20.1 | 20.5 |
| ***Qalıq/İstehlak nisbəti*** | *78.5%* | *51.6%* | *50.2%* | *49.1%* |

**Mənbə**: *https://www.cottoninc.com/market-data/monthly-economic-newsletter/*

- 2020-ci ildə pambığın dünya bazarı qiymətində 2019-cu ilə nisbətən azalma müşahidə olunsa da, 2021-ci ildə yenidən artmışdır. 2022-ci ilin birinci rübündə pambığın 1 kiloqramının dünya bazar qiyməti əvvəlki rübə nisbətən 13.11% artaraq 3.02 ABŞ dolları olmuşdur. Aylıq müşahidə dövründə isə 2021-ci ilin iyun ayından etibarən pambığın dünya bazarı qiymətində ümumi artım tendensiyası müşahidə olunur. 2022-ci ilin may ayında pambığın 1 kiloqramının dünya bazarı qiyməti əvvəlki ay ilə müqayisədə 5.56% artaraq 3.61 ABŞ dolları səviyyəsində qərarlaşmışdır.







**Mənbə:** *https://www.worldbank.org/en/research/commodity-markets#1*

# Xam ipəyin dünya bazarı qiymətinə dair qısa icmal

- **Dünya bazarında xam ipəyin qiymətində 2022-ci ilin mart ayından başlayan azalma may ayında da davam etmişdir. 2022-ci ilin may ayında 1 ton xam ipəyin qiyməti əvvəlki aya nisbətən 5.78% azalaraq 57.35 min ABŞ dolları səviyyəsində qərarlaşmışdır. Həftəlik trenddə isə 2022-ci ilin may ayı ərzində dünya bazarında xam ipəyin 1 tonunun minimum qiyməti 55.44 min ABŞ dolları, maksimum qiyməti isə 58.52 min ABŞ dolları olmuşdur.**




**Mənbə:** http://www.sunsirs.com/uk/sdetail-month--.html




**Mənbə:** http://www.sunsirs.com/uk/sdetail-week--.html

## Quru baramanın dünya bazarı qiymətinə dair qısa icmal

- **Dünya bazarında quru baramanın qiymətində 2022-ci ilin mart ayından başlayan azalma may ayında da davam etmişdir. 2022-ci ilin may ayında 1 ton quru baramanın qiyməti əvvəlki aya nisbətən 2.66% azalaraq 19.41 min ABŞ dolları səviyyəsində qərarlaşmışdır. Həftəlik trenddə isə 2022-ci ilin may ayı ərzində dünya bazarında quru baramanın 1 tonunun minimum qiyməti 18.41 min ABŞ dolları, maksimum qiyməti isə 19.41 min ABŞ dolları olmuşdur.**




**Mənbə:** http://www.sunsirs.com/uk/sdetail-month--.html




**Mənbə:** http://www.sunsirs.com/uk/sdetail-week--.html

## Günəbaxan yağının Avropa bazarı qiymətinə dair qısa icmal

- **Avropa bazarında günəbaxan yağının qiymətində 2021-ci ildə kəskin artım müşahidə olunmuşdur. Belə ki, 2021-ci ildə günəbaxan yağının 1 tonunun Avropa bazarı qiyməti əvvəlki ilə nisbətən 69.81% artaraq 1,350.0 ABŞ dolları olmuşdur. Aylıq müşahidə dövründə isə 2022-ci ilin mart ayında əvvəlki ay ilə müqayisədə 1.71 dəfə kəskin artım qeydə alınmışdır. 2022-ci ilin may ayında günəbaxan yağının 1 tonunun qiyməti aprel ayına nisbətən 3.26% azalaraq 2,055.0 ABŞ dolları səviyyəsində qərarlaşmışdır.**







**Mənbə*:*** https://www.fas.usda.gov/data/oilseeds-world-markets-and-trade

## Zeytun yağının dünya bazarı qiymətinə dair qısa icmal

- **2020-ci ildə zeytun yağının dünya bazarı qiymətində azalma müşahidə olunsa da, 2021-ci ildə yenidən artmışdır. 2022-ci ilin birinci rübündə əvvəlki rübə nisbətən zeytun yağının qiyməti İspaniya və Yunanıstan bazarlarında artmış, İtaliya bazarında isə azalmışdır. Aylıq müşahidə dövründə isə 2021/22-ci illərdə qiymətlərin qeyri-müəyyən dəyişməsi qeydə alınmışdır. 2022-ci ilin may ayında zeytun yağının 1 tonu İtaliya bazarında 4,597.3 ABŞ dolları, İspaniya bazarında 3,595.9 ABŞ dolları, Yunanıstan bazarında isə 3,434.8 ABŞ dollarına təklif olunur.**







**Mənbə**: https://www.internationaloliveoil.org/what-we-do/economic-affairs-promotion-unit/#prices

# Çayın dünya bazarı qiymətinə dair qısa icmal

- **2019-2021-ci illər ərzində çayın dünya bazarı qiymətində artım trendi müşahidə olunmuşdur. Çayın 1 kiloqramının qiymətinin 2021-ci ilin son üç rübündə müşahidə edilən artım, 2022-ci ilin birinci rübündə əvvəlki rübə nisbətən 2.14% azalaraq 2.75 ABŞ dolları təşkil etmişdir. Aylıq müşahidə dövründəki ümumi artım trendi 2022-ci ilin fevral ayından etibarən azalma ilə əvəz olunmuşdur. 2022-ci ilin may ayında çayın 1 kiloqramının dünya bazarı qiyməti əvvəlki ay ilə müqayisədə 7.72% azalaraq 2.99 ABŞ dolları səviyyəsində qərarlaşmışdır.**







**Mənbə:** https://www.worldbank.org/en/research/commodity-markets#1

## Şəkərin dünya bazarı qiymətinə dair qısa icmal

- **Şəkərin dünya bazarı qiymətində 2019-2021-ci illərdə artım trendi qeydə alınmışdır. 2022-ci ilin birinci rübündə şəkərin dünya bazarında 1 kiloqramının qiyməti əvvəlki rüblə müqayisədə 2.38% azalaraq 0.41 ABŞ dolları təşkil etmişdir. Aylıq müşahidə dövründə isə 2022-ci ilin fevral ayına qədər müşahidə edilən azalma mart ayında yenidən artmışdır. 2022-ci ilin may ayında şəkərin 1 kiloqramının dünya bazar qiyməti əvvəlki ay ilə müqayisədə sabit olaraq 0.43 ABŞ dolları səviyyəsində qərarlaşmışdır.**







**Mənbə:** [https://www.worldbank.org/en/research/commodity-markets#1](https://www.worldbank.org/en/research/commodity-markets#1)

# Soyanın dünya bazarı qiymətinə dair qısa icmal

- **2019-2021-ci illər ərzində soyanın dünya bazarı qiymətində artım müşahidə olunmuşdur. 2021-ci ildə soyanın dünya bazarı qiyməti 2020-ci ilə nisbətdə 45.84% artaraq 593.3 ABŞ dolları/ton olmuşdur. 2022-ci ilin birinci rübündə soyanın dünya bazarı qiyməti əvvəlki rüblə müqayisədə 20.11% artaraq 663.0 ABŞ dolları/ton olmuşdur. Aylıq müşahidə dövründə isə soyanın dünya bazarı qiymətində 2021-ci ilin iyun ayından etibarən davam edən azalma, 2021-ci ilin dekabr ayından etibarən artım ilə əvəzlənmişdir. 2022-ci ilin may ayında soyanın 1 tonunun qiyməti əvvəlki ay ilə müqayisədə 0.46% artaraq 724.1 ABŞ dolları səviyyəsində qərarlaşmışdır.**







**Mənbə:** *https://www.worldbank.org/en/research/commodity-markets#1*

# Mal ətinin dünya bazarı qiymətinə dair qısa icmal

- **2019-2021-ci illər ərzində mal ətinin dünya bazarı qiymətində artım müşahidə olunmuşdur. 2022-ci ilin birinci rübündə mal ətinin 1 kiloqramının dünya bazarı qiymətində artım trendi davam edərək əvvəlki rüblə müqayisədə 4.60% artaraq 6.14 ABŞ dollarına qədər yüksəlmişdir. Aylıq müşahidə dövründə də son 1 il ərzində mal ətinin qiymətində ümumi artım trendi müşahidə olunur. 2022-ci ilin may ayında mal ətinin 1 kiloqramının dünya bazarı qiyməti əvvəlki ay ilə müqayisədə 0.82% azalaraq 6.08 ABŞ dolları səviyyəsində qərarlaşmışdır.**







**Mənbə:** https://www.worldbank.org/en/research/commodity-markets#1

## Qoyun ətinin Avropa bazarı qiymətinə dair qısa icmal

- **2019-2021-ci illərdə qoyun ətinin 1 kiloqramının Avropa bazarında qiyməti davamlı olaraq artaraq 7.99 ABŞ dolları səviyyəsində qərarlaşmışdır. 2022-ci ilin birinci rübündə qoyun ətinin 1 kiloqramının Avropa bazarı qiyməti əvvəlki rüblə müqayisədə 3.19% azalaraq 7.89 ABŞ dollarına qədər enmişdir. Aylıq müşahidə dövründə isə son 1 il ərzində qoyun ətinin qiyməti qeyri-müəyyən dəyişmişdir. 2022-ci ilin may ayında isə qoyun ətinin 1 kiloqramının Avropa bazarı qiyməti ötən ay ilə müqayisədə 1.64% azalaraq 7.82 ABŞ dolları səviyyəsində qərarlaşmışdır.**







**Mənbə:** *https://ec.europa.eu/info/food-farming-fisheries/animals-and-animal-products/animal-products/lamb-mutton-and-goatmeat_en#marketmonitoring*

# Donuz ətinin Avropa bazarı qiymətinə dair qısa icmal

- **2020-ci ildə donuz ətinin Avropa bazarı qiymətində əvvəlki ilə nisbətən artım müşahidə olunsa da 2021-ci ildə yenidən azalma müşahidə olunmuşdur. 2022-ci ilin birinci rübündə donuz ətinin 1 kiloqramının qiyməti əvvəlki rüblə müqayisədə 8.72% artaraq 1.62 ABŞ dolları olmuşdur. Aylıq müşahidə dövründə isə 2021-ci ilin iyul ayından noyabr ayına qədər azalma trendi müşahidə olunmuşdur. 2022-ci ilin may ayında donuz ətinin 1 kiloqramının Avropa bazarı qiyməti əvvəlki ay ilə müqayisədə 4.83% azalaraq 1.97 ABŞ dolları səviyyəsində qərarlaşmışdır.**







**Mənbə**: *https://ec.europa.eu/info/food-farming-fisheries/farming/facts-and-figures/markets/overviews/market-observatories/meat/pigmeat-statistics_en#trade*

# Quş ətinin dünya bazarı qiymətinə dair qısa icmal

- **2021-ci ildə quş ətinin dünya bazarı qiymətində əvvəlki ilə nisbətən artım müşahidə olunmuşdur. 2022-ci ilin birinci rübündə quş ətinin 1 kiloqramının dünya bazarı qiyməti əvvəlki rüblərdə müşahidə olunan artım trendinə uyğun olaraq əvvəlki rüblə müqayisədə 22.27% artaraq 3.02 ABŞ dollarına qədər yüksəlmişdir. Aylıq müşahidə dövründə isə 2021-ci ilin dekabr ayından etibarən ümumi artım trendi müşahidə edilmişdir. 2022-ci ilin may ayında quş ətinin 1 kiloqramının dünya bazarı qiyməti əvvəlki ay ilə müqayisədə 0.82% artaraq 3.70 ABŞ dolları səviyyəsində qərarlaşmışdır.**







**Mənbə**: https://www.worldbank.org/en/research/commodity-markets#1

## Qaba yunun dünya bazarı qiymətinə dair qısa icmal

- **2018-2020-ci illər ərzində qaba yunun dünya bazarı qiymətində azalma trendi qeydə alınmışdır. 2021-ci ilin üçüncü rübündə qaba yunun 1 tonunun dünya bazarı qiyməti əvvəlki rüblə müqayisədə 5.34% azalaraq 885.6 ABŞ dolları olmuşdur. Aylıq müşahidə dövründə isə son 1 il ərzində 2020-ci ilin dekabr ayından etibarən müşahidə olunan artım trendi 2021-ci ilin aprel ayından qeyri-müəyyənliklə əvəzləndi. 2021-ci ilin noyabr ayında isə qaba yunun 1 tonunun dünya bazarı qiyməti ötən ay ilə müqayisədə 2.25% artaraq 0.91 min ABŞ dolları səviyyəsində qərarlaşmışdır.**







**Mənbə**: https://www.imf.org/en/Research/commodity-prices

## Südün dünya bazarı qiymətinə dair qısa icmal

➢ **2021-ci ildə ABŞ, Avropa İttifaqı və Yeni Zelandiyada süd xammalının bazar qiymətlərində ötən ilə nəzərən artım qeydə alınmışdır. Aylıq trenddə isə 2022-ci ilin aprel ayında əvvəlki ay ilə müqayisədə süd xammalının dünya üzrə sahədən satış qiymətində ABŞ-da 4.84%, Avropa İttifaqında 4.01% artım, Yeni Zelandiyada isə 4.28% azalma müşahidə olunmuşdur.**




**Mənbə**: https://www.clal.it/en/index.php




**Mənbə**: https://www.clal.it/en/index.php

- **2021-ci ildə ABŞ-da və Avropa İttifaqında quru südün bazar qiymətində ötən illərə nisbətən artım qeydə alınmışdır. Aylıq trenddə isə 2022-ci ilin aprel ayında əvvəlki ay ilə müqayisədə quru südün 1 tonunun dünya bazarı qiyməti ABŞ-da 0.40% azalaraq 4.96 min ABŞ dolları, Avropa İttifaqında isə 2.42% azalaraq 5.64 min ABŞ dolları olmuşdur.**




**Mənbə**: https://www.clal.it/en/index.php




**Mənbə**: https://www.clal.it/en/index.php

# Gübrənin dünya bazarı qiymətinə dair qısa icmal

- **Gübrələrin dünya bazar qiyməti 2019-2020-ci illərdə nisbətən sabit qalsa da, 2021-ci ildə əvvəlki ilə nisbətən diamonium-fosfatın, kalsium-fosfatın, üçqat super-fosfatın və karbamidin qiymətində artım, potassium-xloridin qiymətində isə azalma trendi müşahidə olunmuşdur. Aylıq müşahidə dövründə isə 2021-ci ilin sentyabr ayından etibarən əksər gübrələrin qiyməti nəzərəçarpacaq dərəcədə artıb. 2022-ci ilin may ayında isə gübrələrin qiyməti əvvəlki ay ilə müqayisədə potassium-xloriddə sabit qalmış, kalsium-fosfatda 2.20% artmış, diamonium-fosfatda 11.69%, üçqat super-fosfatda 3.33%, karbamiddə isə 23.51% azalmışdır.**







**Mənbə:** [https://www.worldbank.org/en/research/commodity-markets](https://www.worldbank.org/en/research/commodity-markets)